# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 520** **Bakı şəhəri, 1 dekabr 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Bruselyoza və vərəmə yoluxmuş heyvanların məcburi kəsilərək zərərsizləşdirilməsi nəticəsində heyvan sahibinə dəyən zərərin kompensasiyasının ödənilməsi Qaydalarının təsdiq edilməsi haqqında” 2002-ci il 8 iyul tarixli 104 nömrəli, “Azərbaycan Respublikasında dövlət baytarlıq nəzarəti funksiyasını yerinə yetirən şəxslər üçün xüsusi geyim formasının, fərqləndirici nişanların təsviri və onların təchizat normasının təsdiq edilməsi haqqında” 2003-cü il 13 may tarixli 61 nömrəli, “Dövlət baytarlıq orqanlarının möhürləri və onların istifadə edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2007-ci il 11 yanvar tarixli 2 nömrəli qərarlarının ləğv edilməsi barədə**

“Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1010-VQD nömrəli Qanununun tətbiqi və “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 aprel tarixli 1921 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** “Bruselyoza və vərəmə yoluxmuş heyvanların məcburi kəsilərək zərərsizləşdirilməsi nəticəsində heyvan sahibinə dəyən zərərin kompensasiyasının ödənilməsi Qaydalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli 104 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 444; 2005, № 6, maddə 558) ləğv edilsin.

**2.** “Azərbaycan Respublikasında dövlət baytarlıq nəzarəti funksiyasını yerinə yetirən şəxslər üçün xüsusi geyim formasının, fərqləndirici nişanların təsviri və onların təchizat normasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 5, maddə 247; 2005, № 6, maddə 558; 2009, № 1, maddə 34, № 9, maddə 736; 2015, № 2, maddə 227; 2018, № 4, maddə 827) ləğv edilsin.

**3.** “Dövlət baytarlıq orqanlarının möhürləri və onların istifadə edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 11 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 46; 2014, № 7, maddə 939) ləğv edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***